Azərbaycan Demokratiya və Rifah (ADR) Partiyasının Tehrandakı Azərbaycan səfirliyinə olan terror hücumu ilə bağli

Bəyanati

Bu gün Azərbaycan Respublikasının Tehrandakı səfirliyinə silahlı hücumun şahidi olduq və çox təəssüf ki, bu terror nəticəsində Azərbaycanın bir vətəndaşi şəhid olub, iki nəfər yaralanıb.

Bu, bir il ərzində xaricdəki diplomatik nümayəndəliyimizə artıq ikinci hücumdur. Londondan sonra Tehrandakı Azərbaycan səfirliyinə qarşı gerçəkləşən və ölümlə nəticələnən bu hucumu ADR Partiyası olaraq qətiyyətlə pisləyir, qətlə yetirilən baş leytenat Əsgərov Orxan Rizvan oğluna rəhmət, yaralıların tezliklə sağalmasını diləyirik.

ADR Partiyası olaraq bildirirk ki, bu terror aktı dərindən araşdırılmalı, həm hüquqi və həm də siyasi qiymətini almalıdır. Bütün hallarda diplomatik, siyasi, iqtisadi münasibətlərrin pozulmasına və eyni zamanda ikitərəfli münasibətlərin, qonşuluq siyasətinin ciddi surətdə pozulmasına rəvac verə biləcək terror hadisəsinə rəsmi münasibətin bildirilməsi Tehranın məsuliyyət dairəsindədir, çünki, bu terrora görə cavabdeh məhz İran İslam Respublikasıdır.

Azərbaycan Demokratiya və Rifah (ADR) Partiyası

27 yanvar 2023-cü il